***Elnur HACALİYEV*** *

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA SİYASİ VƏ İQTİSADİ MODERNLƏŞMƏNİN İNKİŞAF TARİXİ

**Açar sözlər:** demokratik, siyasi, sistem, modernləşmə, siyasi sistem
**Keywords:** democratic, political, system, modernization, political system
**Ключевые слова:** демократичность, политический, система, модернизация, политическая система

Təcrübə göstərir ki, yeni siyasi sistemə keçid, onun daha yüksək tarixi tipi son nəticədə kəmiyyət və formal xarakterli parametrlərlə (seçki prosesində iştiark edən əhalinin sayı, konstitusiyada möhkəmləndirilən demokratik proseduraların təkrarlanma dərəcəsi) deyil, məhz keyfiyyət göstəriciləri - insan hüquq və azadlıqlarının təmin edilməsinin faktiki səviyyəsi, sosial birliklər, kollektivlər, sistemin bütün struktur elementlərinin inkiaşfını və sabitliyin təmin edən real mexanizmlərin mövcudluğu də müəyyən olunur. Hazırda elmi ədəbiyyatda Azərbaycan Respublikasının demokratik siyasi sisteminin özəyi suveren Azərbaycan dövlətidir. Bu siyasi sistem özündə aşağıdakıları əks etdirir:

1. Siyasi hakimiyyətin təşkilini;
2. Cəmiyyət və dövlət arasındakı münasibətlərin birləşdirilməsini;
3. Hakimiyyətin təsisatlaşması da daxil olmaqla siyasi prosesləri;
4. Cəmiyyətdə siyasi fəaliyyətin vəziyyətini;
5. Cəmiyyətdəki siyasi yaradıcılığın mövcud səviyyəsini;
6. Siyasətdə iştirakıçılığın xarakterini;
7. Təsisatlı mahiyyət kəsb etməyən siyasi münasibətləri,

Dünyanın aparıcı ölkələrinin siyasi sistemində olduğu kimi, Azərbaycan Respublikasının özünəməxsus xüsusiyyətləri vardır. Müstəqillik əldə etdikdən sonra ölkəmizdə siyasi sistemin strukturunun formalaşması prosesinin əsası qoyuldu. Digər ölkələrdə olduğu kimi (əsasən), Azərbaycan Respublikasının siyasi sistemi özünəməxsus struktura malikdir, bu struktur hakimiyyətin üç səviyyəsinin yarımsistemindən və siyasi münasi-

* **Hacalıyev Elnur** - AMEA-nın Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru. E-mail: elnurhacali@mail.ru

bətlərdən təşəkkül tapır: yüksək və ya yuxarı (makro səviyyə), orta və ya aralıq (mezo səviyyə) və aşağı, kütləvi (mikro səviyyə).

Azərbaycan Respublikasının siyasi sisteminin mikro səviyyəsi özündə dövlət hakimiyyətinin mərkəzi aparatını birləşdirir. Siyasi sistemin mezo səviyyəsi idarəetmə aparatı, hakimiyyətin seçkili və təyinatlı orqanları tərəfindən yaradılır və bilavasitə makro səviyyə strukturuna qovuşur, lakin bu strukturun periferiyasını hakimiyyətin mərkəzdən uzaq yerli orqanları təşkil edir. mezo və ya orta səviyyə struktura siyasi sistemin makro strukturu ilə cəmiyyət arasında əlaqələndirici həlqə kimi səciyyələnir, onların qarşılıqlı münasibətlərini təşkil edir.

Azərbaycan Respublikasının siyasi sisteminin mikro səviyyə strukturu ictimai qrupların, təbəqələrin, cəmiyyət üzvlərinin siyasi həyatda kütləvi iştirakı sayəsində yaranır. Mikro səviyyədə siyasi xalq hərəkatı formalaşır, siyasi qruplaşmalar və partiyalar yaranır, ictimiai rəy formalaşır, cəmiyyətin əhəmiyyətli tərkib hissəsi və xarakteristikası kimi səciyyələnən siyasi mədəniyyət təşəkkül tapır. Cəmiyyətimizin siyasi sisteminin bütün struktur səviyyələri ölkələrimizin keçid dvörünə qədəm qoyduğu zamandan etibarən təşəkkül tapmış və formalaşmışdır. Bu formalaşma Azərbaycan Respublikasının siyasi sisteminin mahiyyət etibarilə modernləşməsinin zəruri zəmini kimi çıxış edir.

Azərbaycanın siyasi sisteminin formalaşması və modernləşməsi baxımdan onun funksional mahiyyətinin açıqlanması da vacibdir. Struktur-funksional təhlildən kənarda tədqiq edilən məsələyə aydınlıq gətirmək qeyri-mümkündür. Cəmiyyətin siyasi sisteminin xüsusiyyətləri və strukturu onun funksiyalarının məzmununu əhəmiyyətli dərəcədə müəyyənləşdirir.

Bütün ölkələrin, eləcə də Azərbaycanın siyasi sisteminin başlıca funksiyası cəmiyyətin idarə edilməsi, dövlətin siyasi rəhbərliyi funksiyasıdır. Bu funksiya strateji məqsədlərin və ictimai inkiaşfın perspektivinin müəyyənləşdirilməsində, strateji modernləşmə siyasi kursun işlənib hazırlanmasında və reallaşmasında təzahür edir.

Siyasi sistemin digər əhəmiyyətli funksiyası inteqrativ funksiyasıdır. Bu funksiyanın məqsədi ictimai-siyasi quruluşun birliyini təmin etməkdən, bütövlükdə cəmiyyətin dinamik sabitliyinə nail olmaqdan iabərtdir.

Nəhayət, siyasi sistemin spesifik əhmiyyət kəsb edən funksiyalarından biri tənzimləmə funksiyasıdır. Bu funksiya dövlət sistemində siyasi davranışın və siyasi münasibətlərin qaydaya salınmasına və reqlamentləşdirilməsinə istiqamətlənir. Tənzimləmə funksiyası insanların ictimai cəhətdən faydalı davranışının yüksək səviyyəsini işləyib hazırlamaqdan və əsaslandırmaqdan ibarətdir.

Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq Azərbaycanda müstəqil şəkildə formalaşan və fəaliyət göstərən üç hakimiyyət qolu qərarlaşmışdır: qanunverici hakimiyyət səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikasının parlamenti, icra hakimiyyətini həyata keçirən onun prezidenti, məhkəmə hakimiyyətini həyata keçirən Azərbaycan Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəməsi (1,s.420).

Azərbaycan Respublikasının yeni siyasi sisteminin modernləşməsi sistemində dövlət hakimiyyətinin modernləşməsi problemi çox əhəmiyətli yer tutur. Bununla bağlı qeyd etmək lazımdır ki, müasir dünyada həyata keçirilən milli modernləşmələrin nəticələri birmənalı deyildir, istər-istəməz qloballaşma çox vaxt xeyli sosial, iqtisadi və siyasi proseslərin qeyri-sabitliynə səbəb olur. Belə şəraitdə hər hansı milli dövlət açıq mükəmməl olmayan qlobal sistemin elementi kimi çıxış etməklə, onun inkişafına müəyyənedici təsir göstərir. Buna görə ölkənin ümumi modernləşməsinin istiqaməti dövlət hakimiyyəti və iqtisadiyyatla təsəvvür olunan onun daxili determinatından başlayır. Cəmiyyətin siyasi sisteminin inkişafı prosesində dövlət hakimiyyətinin modernləşməsi fenomeninin tədqiqi müasir siyasi elmin ən mürəkkəb və eləcə də ən aktual problemlərindən biridir. Dövlət hakimiyyəti ölkənin milli dövlət mənafeyini reallaşmasının başlıca vasitəsi kimi çıxış edir. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, "bu gün Azərbaycan suveren və inkişaf etmiş dövlətdir. Biz arzu edirik ki, müstəqilliyimiz əbədi olsun, öz taleyimizin sahibi olaq, dünya birliyində müstəqil dövlət kimi öz yerimizi tutaq" (2,s.75).

Heydər Əliyevin birinci dəfə hakimiyyətdə olduğu dövrdə 1970-80-ci illərdə Azərbaycan iqtisadiyyatının ayrı-ayrı sahələri sürətli inkişaf yoluna qədəm qoymuş, sənaye məhsulunun artım sürətinə görə Azərbaycan keçmiş SSRİ-də öncül yerlərdən birinə cıxmış, 1985-ci ildə isə əsas istehsal fondlarının dəyəri 1969-cu illə müqayisədə 2 dəfə artmış, əsas fondların 69 faizi tamamilə yenilənmişdi.

1976-82-ci illər ərzində Azərbaycanda 15 mühüm sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, 12 iri müəssisənin istehsal gücü artırılmış, bura-

xılan məhsulun nomenklaturu xeyli genişlənmiş, fəaliyyətdə olan bir çox maşınqayırma zavodları texniki cəhətdən müasirləşdirilmişdi. Xüsusilə Heydər Əliyevin şəxsi təşəbbüsü və daimi nəzarəti altında Bakı məişət kondisionerləri zavodunun qısa vaxt ərzində - cəmi 2 ilə ərsəyə gətirilməsi o zaman bütün keçmiş İttifaq respublikalarında nadir hadisə kimi qarşılanmış, respublikanın şöhrətini daha da artırmışdı. Azərbaycanda etilen və polietilen istehsalı, sintetik kauçuk, mineral gübrələr, yuyucu tozlar və digər məhsullar istehsal edən iri komplekslər istifadəyə verilir, Sumqayıtdakı müəssisələrin demək olar ki, hamısı köklü surətdə yenidən qurulurdu. Respublikada ilk dəfə çoxsahəli əlvan və qara metallurgiya kompleksi yaradılmış, boru-prokat zavodu texniki cəhətdən tamamilə yenidən qurulmuşdu. Məhz həmin dövrlərdə yaradılan iqtisadi potensial çox sonralar özünün dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanın inkişafı üçün yaxşı təməl idi.

Heydər Əliyev 1993-ü ildə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda müstəqil dövlət yaradılması və dövlətçiliyin möhkəmləndirilməsi, idarəetmə proseslərinin mərkəzləşdirilməsi və milli iqtisadiyyatın durğunluq prosesinin dayandırılması məqsədi daşıyan sosial-siyasi və iqtisadi dəyişikliklər həyata keçirməyə başladı. Milli tariximizin bu dövrü milli dövlətçilik qurulması üçün o vaxt zəruri olan qətiyyətli etatist yanaşmanın əsası, başlıca mənbəyi olmuş, bu yanaşmanın bazis konsepti isə Azərbaycan cəmiyyətinin siyasi, iqtisadi və sosiomədəni modernləşməsinin prioritet komponenti kimi realpolitik çıxış etmişdir.

Dövlət hakimiyyəti siyasi hakimiyyətin mühüm növüdür, ölkəni idarə etmək üçün hakimiyyət funksiyalarına malikdir. Modernləşmənin milli modeli dövlət idarəçiliyinin optimallaşdırılması üçün real imkan yaradır, siyasi və vətəndaş aktorların qarşılıqlı fəaliyyətini şərtləndirir, bazar iqtisadiyyatına effektli təsir göstərir və nəticə etibarilə cəmiyyətin birliyini təmin edir.

Dövlət hakimiyyətinin modernləşməsi bilavasitə onun siyasi fəaliyyətinin başlıca vəzifələri ilə şərtlənir. Bütövlükdə, bu modernləşməni təmin edən həmin vəzifələrə aiddir:

- milli-dövlət maraqlarını – millət və xalqın yaşaması, həyatı tələbatının reallaşması, özünü mühafizəsi, özünütəsdiqi və öz təhlükəsizliyini təmin etməsi;





- bütün cəmiyyətin, eləcə də ayrı-ayrı sosial birliklərin mənafeyi naminə müxtəlif sosial proseslərin uyğunlaşdırılması;
- ümumi məqsədlərə və ya hakim sosial qrupların mənafeyinə müvafiq olaraq ictimai, siyasi münasibətlərə müəyyən istiqamət verilməsi;
- müəyyən ictimai sistemin sabit fəaliyyətinin təşkili, qorunub saxlanılması və keyfiyyətcə inkişafı;
- ictimai normalar halında legitim məcburetmənin həyata keçirilməsini nəzərə almaq.

Dövlət hakimiyyətinin, bütövlükdə siyasi hakimiyyətin modernləşməsini tədqiq edərkən onu hakimiyyətin resursları və ya mənbəyi ilə əlaqələndirmək zəruratdir. Siyasi fikir tarixində bu məsələyə həmişə mühüm diqqət yetirilmişdir. Makiavelli iddia edirdi ki, hakimiyyəti uğurla həyata keçirmək üçün insanın maddi mənfəətə və özünü qoruyub saxlamağa cəhdini nəzərə almaq tamamilə vacibdir. Müasir tədqiqatçılar da bu məsələyə əhəmiyyətli diqqət yetirirlər (3,s.16-18).

Görkəmli Amerika alimi R.Dahlın təsnifatına görə, hakimiyyətin mənbəyinə – resurslarına aiddir: sosial vəziyyət, iqtisadi imkanlar, qanun və qanunçuluq mədəniyyəti, nüfuz, işçi yerinə nəzarət, informasiyaya yiyələnmək. Bu tədqiqatçının fikrincə, müasir cəmiyyətdə hakimiyyətin resursları qeyri-bərabər bölünsə də, bu və ya digər dərəcədə cəmiyyətin bütün üzvləri üçün əlçatandır.

Dövlət hakimiyyətinin əsası olmaq etibarilə, resursların modernləşmə baxımdan həlledici əhəmiyyəti R.Blaunun «sosial mübadilə» nəzəriyyəsində də öz əksini tapmışdır. Bu nəzəriyyəyə görə hakimiyyətin əsasını az tapılan resursların qeyri-bərabər səviyyədə bölüşdürülməsi təşkil edir. Resurslara malik olmayan insanlar onların tabeliyində olduqları insanların sərəncamlarını icra etmək müqabilində (deməli, müqadilə yolu ilə) əldə edirlər. Beləliklə, cəmiyyət üzvlərinin müəyyən qrupu başqalarından asılı vəziyyətə düşür, daha dəqiq desək hakimiyyətin obyektinə çevrilir. Bu mənada siyasi dövlət hakimiyyətinin «aşağılar» tərəfindən modernləşməsi çətinləşir və modernləşmə bir qayda olaraq «yuxarılar» tərəfindən həyata keçirilir, cəmiyyətdə müxtəlif istiqamətindən həyata keçirilir, cəmiyyətdə müxtəlif istiqamətli islahatların həyata keçirilməsi məhz hakimiyyətin səlahiyyətləri çərçivəsində reallaşır. Bununla yanaşı, məşhur Amerika sosioloqu Olvin Tofflerin belə bir fikrini də xatırlatmaq zəruridir. O, yazır:

«İctimai inkişafın gedişində hakimiyyətin məcburetmə və sərvət kimi ənənəvi resursları tam aradan qalxmasa da öz təsirini itirir. Əsl hakimiyyət isə birliklərə və informasiyaya sahib olur" (3,s.16).

Cəmiyyətimizdə siyasi sistemin fəaliyyətinin və funksiyasının aktual problemlərindən biri, eləcə də onun modernləşməsini şərtləndirən çox mühüm amil siyasi sistemin sabitliyinin təmin edilməsidir. Bu, dəyişikliyə məruz qalan sosial mühitdə onun öz təsisatlar sistemini saxlamasını ifadə edir. Sabitlik siyasi sistemin elə möhkəmliyidir ki, baş verən dəyişikliklər mövcud nümunələrə təsir göstərmir, onlar olduğu kimi qalır. Sabitliyin daim fəaliyyət göstərən amillərinə sosial, ideoloji və sosial-psixoloji xarakterli amillər aiddir.

Sabitlik siyasi cəmiyyətin və iştiarkçılığın təsisatlaşma səviyyəsindən asılıdır. İnkişaf etmiş dövlətlər zəif inkişaf etmiş, qeyri-sabit siyasi sistemlərə malik olan təsisatlaşmanın yüksək səviyyəsinə, vətəndaşların dövlətin və ictimai həyatın idarə edilməsində iştirakı səviyyəsinə görə fərqlənirlər. Sabitliyin ən mühüm siyasi amili kimi dövlət hakimiyyəti ilə siyasi partiyaların təsirinin sistemli tarazlığı çıxış edir. Avropa ölkələrində siyasi sistemin İsveç modelinin sabit mahiyyəti daha çox dəyərləndirilir. İsvec siyasi sisteminin möhkəmliyi, şübhəsiz, daha çox ənənəvi siyasi kursla bağlıdır. Bu siyasi kurs kapitalizm çərçivəsi daxilində tədrici islahatlara, qarşıya qoyulan məqsədlərə və onun əldə edilməsi vasitələrinə praqmatik münasibət göstərilməsinə əsaslanır (4,s.7,10).

Əlbəttə, siyasi sistemin sabitliyinə aid İsveç modelindən müəyyən ölkələrin, eləcə də Azərbaycanın istifadə etməsi məqsədəuyğundur.

Siyasi sistemin sabitliyinin pozulması siyasi böhrana gətirib çıxara bilər. Siyasi böhranın əlamətlərinə aid edilə bilər: hakimiyyət strukturlarının qeyri-legitimliyi; hakimiyyətin müxtəlif mərkəzlərinin qarşılıqlı əlaqəsinin kəsilməsi; hakimiyyətin bir qolu tərəfindən digərinin bloka alınması; paralel hakimiyyət strukturlarının yaradılması; leqal, legitim strukturlarla yanaşı, qeyri-leqal və ya leqal, lakin qeyri-legitim strukturların yaradılması və b. Bəzi ölkələrin təcrübəsi göstərir ki, siyasi həyatın sabitliyi o zaman uzun müddət təmin edilə bilər ki, hakimiyyət ölkədə baş verən durğunluğu saxlamağa deyil, məhz siyasi sistemin köhnəlmiş, həyat qabiliyyətini itirmiş elementlərini düşünülmüş səviyyədə gedişi ilə əvəzləməyə cəhd edir.





Azərbaycan Respublkiasında demokratik siyasi sistemlə yanaşı, yeni iqtisadi sistemin, milli iqtisadiyyatın formalaşması və modernləşməsi cəmiyyətimizin transformasiya mərhələsinin obyektiv qanunauyğunluğudur. Bəzi müəlliflər belə qənaətə gəlirlər ki, keçid dövrünün müddəti konkret tarixi şəratdən, daxili və xarici amillərdən, millətin bu prosus üçün hazırlıq səviyyəsindən asılıdır. Azərbaycanda keçid dövrünün hətta 30 il davam edəcəyini əsaslandırmağa cəhd edənlər və vardır. Keçid dövründə dövlətin başlıca vəzifələrindən biri yeni təsərrüfat formalarının yaranması və inkişafına əlverişli, real şəraitin yaradılmasından ibarətdir. Azərbaycanda keçid dövrünün müddəti ilə bağlı mübahisəli məqamlara aydınlıq gətirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin belə bir fikrini xatırlatmaq vacibdir: "Azərbaycanda iqtisadi sahədə keçid dövrü artıq başa çatmışdır". Yeni iqtisadi sistemin formalaşması və modernləşməsi ilə bağlı tədqiqatçılıq fəaliyyətinin metodologiyası baxımdan bu fikir xüsusi əhəmiyyət kəsb edir.

İqtisadi sistemin formalaşmasının və iqtisadiyyatda modernləşmənin vacib şərti bazar münasibətlərinin formalaşmasıdır. Bazar iqtisadiyyatının təşəkkül tapdığı ölkələr öncə, bu xüsusiyyətlərlə səciyyələnir: mülkiyyət və sahibkarlıq hüququnun təmin olunması; iqtisadiyyatın dövlət tərəfindən qanunlar əsasında tənzimlənməsi; işsizliyin azalması; vətəndaşların dövlət idarəçiliyində təmsil edilməsi; ictimai bölmənin geniş inkişafı; ardıcıl sosial islahatların həyata keçirilməsi və b.

İqtisadiyyatda modernləşmənin həlledici şərti investisiya qoyuluşudur. Hazırda yalnız neft sektorunda deyil, eləcə də digər sahələrə investisiya qoyuluşu artmış, ölkəmizə xarici kapital geniş cəlb edilmişdir. Heç də təsadüfi deyil ki, 1995-1996-cı illərdə makro-iqtisadi sabitliyə və strukturların yenidən təşkilinə aid proqramın həyata keçirilməsi nəticəsində daha yüksək inkişaf sürəti neft emalı, metallurgiya. ağac emalı və digər sənaye sahələrində müşahidə olunmuşdur.

Gələcəkdə respublikanın inkişaf səviyyəsinin yüksəldilməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi xarici investisiyaların daha çox sitehsal sahələrinə yönəldilməsini tələb edir. Son illər bu istiqamətdə Azərbaycan dövlətinin apardığı düzgün, məqsədyönlü siyasət şübhəsiz, uğurlu nəticələrlə başa çatacaq. Bu, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi nəhəng layihələrin gerçəkləşməsi, res-

publikamızın Avropa regionunun enerji təhlükəsizliyinin təmin edilməsində əsas təminatçılardan birinə çevrilməsi xalqımızın dünya arenasında layiqli yerini təmin edir. Respublikada investisiya prosesi xeyli fəallaşmışdır. Əgər Azərbaycan 1995-ci ildə xarici investorlardan 400 milyona yaxın dollar əldə etmişdisə, 1998-ci ildə respublika iqtisadiyyatına 1,4 milyard dollar vəsait qoyulmuşdur. 1996-cı ildən 2002-ci ilə qədər olan dövrdə isə ölkə iqtisadiyyatına 12 milyard ABŞ dolları həcmində investisiya qoyulmuşdur, onun 9 milyard dolları xarici investorların payına düşür (5,s.143).

Kapital qoyuluşunun böyük hissəsi neft sənayesinə istiqamətlənmişdir, qalan hissəsi isə ticarət-vasitəçilik və maliyyə-kommersiya sferalarına tətbiq edilmişdir.

Hazırda Azərbaycan Respublikasında dünyanın 50-ə yaxın ölkəsinin xarici investisiyalı müəssisəsi vardır. 2000-ci ildə Azərbaycanda 1478 xarici və müştərək investisiyalı müəssisə fəaliyyət göstərmiş və onlarda 29,1 min nəfər işlə təmin edilmişdir.

Azərbaycanda fəaliyyət göstərən xarici investisiyalı və müştərək müəssisələrin çoxu istehsalatla bağlı olmayan, az hissəsi isə istehsalla bağlı sahələrin payına düşür. Ölkə iqtisadiyyatına 1995-2000-ci illərdə 5793,1 milyon ABŞ dolları məbləğində birbaşa xarici investisiya cəlb edilmişdir. Azərbaycan xarici investisiyaların cəlb olunmasına görə dünyada ön sıralardadır. Belə i, 2004-2008-ci illərdə Azərbaycana 25 milyard ABŞ dolları həcmində xarici investisiya yatırılıb. Təkcə 2014-cü ildə isə ölkə iqtisadiyyatına 27 milyard dollar investisiya qoyulmuşdur. Onlardan 16 milyardı daxili sərmayədir. Azərbaycanın valyuta ehtiyatları da artmışdır. Hazırda ölkəmizin valyuta ehtiyatları 50 milyard dollar ötmüşdür. İnkişaf etmiş ölkələrin göstəricilərinə nəzər salsaq görərik ki, Azərbaycan bu sahə üzrə hətta bir çox ölkələri də qabaqlyaır. Bütün bunlar Azərbaycanda demokratik iqtisadi sistemin formalaşması və modernləşməsini aydın şəkildə əks etdirir.

Yeni iqtisadi sistemin formalaşması və modernləşməsi ilk növbədə iqtisadi ehtiyatların toplanması, orta sinfin təşəkkülü, təhsilin yüksəldilməsi ilə şərtlənir. Qərb cəmiyyətində orta sinfə gəlir səviyyəsindən asılı olaraq kiçik və orta sahibkarlar, fermerlər, yüksək əmək haqqı alan fəhlələr və qulluqçular, habelə iri burjuaziya və fəhlələrin böyük əksəriyyəti aid edilir. Cəmiyyətin sosial strukturunda orta siniflər (təbəqələr) əhəmiyyətli





rol oynayırlar. Cəmiyyətin məqsədyönlü idarə edilməsi, ahəngdar inkişafı, hərtərəfli təmilləşdirilməsi sosial təbəqələrin cəmiyyətdəki mövqeyindən çox asılıdır. Hər hansı cəmiyyətdə orta təbəqələrin üstünlük təşkil etməsi sosial ədalətin həqiqi göstəricisi kimi çıxış edir.

Yeni iqtisadi sistemin formalaşması və modernləşməsinin mühüm istiqamətlərindən digəri isə Azərbaycanda kütləvi özəlləşmənin həyata keçirilməsidir. Yeni təşəkkül tapan mülkiyyət folrmaları əsasında müəssisələrin özəlləşməsi istiqamətində ciddi tədbirlər görülür, səhmdar cəmiyyətləri və digər tipli təşkilatlar yaranır. Azərbaycan kütləvi özəlləşdirməyə digər keçmiş sovet respublikalarında gec qədəm başlamışdır. Bu, həmin respublikaların təcrübəsindən istifadə etməyə iman yaratmışdır. Bununla bağlı sosial-iqtisadi sferadakı böhranı aradan qaldırmaq mümkün olmuş və özəlləşdirmə daha ərverişli şəraitdə həyata keçirilmişdir. Özəlləşdirmə proqramının baş-lıca məqsədləri kimi bunlar müəyyənləşdirilmişdir: bazar iqtisadiyyatının yaradılması və əhalinin həyatının sosial şəraitinin yaxşılaşdırılması; xalq təsərrüfatında müvafiq struktur dəyişiklikləri; ölkə iqtisadiyyatına daxili və xarici investisiyaların cəlb edilməsi.

Özəlləşdirmə əhalinin geniş təbəqəsinin sahibkarlığa cəlb olunmasına imkan yaratmışdır. Əgər 1999-cu ildə ölkədə 50 min sahibkar var idisə (6,s.90), 2002-ci ildə onların sayı 100 minə çatdı (7,s.152).

Bazar iqtisadiyyatına keçid bütün ölkələr üçün çətin, mürəkkəb proses olsa da, bazar mühitinin formalaşması və inkişafı, bazar infrastrukturlarının təşəkkülü, heç də geniş əhali təbəqələrinin mənafeyinə zidd olmamalıdır, iqtisadi səmərəlilik gözlənilməklə, eləcə də sosial cəhətdən ədalətli olmalıdır. Bazar iqtisadiyyatının təşəkül tapdığı mərhələdə iqtisadiyyatın tənzimlənməsinə dövlət səmərəli və fəal rol oynamalıdır.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**


1. Козырев Г.И.Конфликтология. Социальные конфликты в общественной жизни /Социально гуманитарного знания, 1999. №1.
2. Əliyev H.Müstəqilliyimiz əbədidir. XXV kitab. Bakı, 2009.
3. Тоффлер О.Проблема власти на пороге XXI века. Свободная мысль. 1992. №2.
4. Волков А.М. Швеция: социально-экономическая модель. М,Логос, 1991.
5. Руткевич М.Н.Диалектиа и социология. М., Политиздат 1980.
6. Azərbaycan iqtisadiyyatı. Bakı, 1999.

7. Гасанов Р.М. Формирование гражданского общество в условиях трансформации. Бакы, «Китаб алями», 2003.
8. Əhmədov Ə, Aslanov A. "Modernləşmə siyasəti: Yeni iqtisadi və sosial çağırışlar", Bakı-2013, səh 253
9. Babaoglu H. "Heydər Əliyev siyasi irsinin politoloji aspektləri" Bakı-2013, səh 422
10. Məmmədov Z. "Demokratik cəmiyyət quruculugunun ictimai-siyasi, sosial və mənəvi problemləri" Bakı-2012, səh 320.

## HEYDAR ALIYEV AND THE HISTORY OF POLITICAL AND ECONOMIC MODERNIZATION IN AZERBAIJAN
## SUMMARY

In article formation and modernization of democratic political and economic system in Azerbaijan are investigated. Here objective and subjective factors of formation and modernization of political and economic system reveal, features and national specifics of this process are shown. Value of the political and economic reforms, which are carried out in the conditions of democratization, is specified and new political structures and modern level of activity of the economic organizations are analyzed.

## ГЕЙДАР АЛИЕВ И ИСТОРИЯ ПОЛИТИЧЕСКОЙ И ЭКОНОМИЧЕСКОЙ МОДЕРНИЗАЦИИ АЗЕРБАЙДЖАНА
## РЕЗЮМЕ

В статье исследуются формирование и модернизация политической и экономической системы в Азербайджане. Здесь расскрываются объективные и субъективные факторы формирования и модернизации политической и экономической системы, показываются особенности и национальная специфика данного процесса. Отмечается значение политических и экономических реформ, проводимых в условиях демократизации, а также анализируются новые политические структуры и современный уровень деятельности экономических организаций.